**Dövlət Statistika Komitəsinin Əmək statistikası şöbəsi müdirinin müavini Nemət Xuduzadənin Keyfiyyətli məşğulluq üzrə ekspert qrupunun birinci görüşündə iştirakı haqqında**

Keyfiyyətli məşğulluğun konseptual strukturunun, 58-ci plenar sessiyanın tələblərinə uyğun olaraq göstəricilər sisteminin, eyni zamanda müvafiq metodoloji sənədlərin təhlil edilməsi və yenidən işlənməsi məqsədilə Azərbaycan, Avstraliya,



Almaniya, Kanada, Finlandiya, Fransa, İsrail, İtaliya, Lüksemburq, Hollandiya, Moldova, İsveçrə, Meksika milli statistika idarələrinin, eyni zamanda Avrostat, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı (BƏT) və BMT-nin Avropa İqtisadi Komissiyasının (AİK) mütəxəs-sislərindən ibarət yaradılmış Keyfiyyətli məşğulluq üzrə ekspert qrupunun AİK, Avrostat, BƏT və Almaniya Federal Statistika İdarəsi tərəfindən birgə təşkil etdiyi birinci görüşü 2012-ci il noyabrın 22-23-də Almaniyanın Vizbaden şəhərində keçirilmişdir. Ekspert qrupunun üzvü kimi Əmək statistikası şöbəsi müdirinin müavini Nemət Xuduzadə birinci iclasda iştirak etmişdir.

Görüşün əsas məqsədi AİK tərəfindən qəbul edilmiş iş planına uyğun olaraq, keyfiyyətli məşğulluğun ölçülməsinə dair yenidən işlənmiş konseptual sənədin, keyfiyyətli məşğulluğun ölçülməsi üçün nəzərdə tutulan 7 əsas elementdən 4-nün göstəricilər sisteminin (alt göstəricilər ilə birlikdə) layihələrinin, bu göstəricilərin metodologiya və izahlarının müzakirə edilməsi və razılaşdırılması, eyni zamanda növbəti mərhələdə həyata keçiriləcək tədbirlərdən ibarət olmuşdur.

2012-ci ilin fevral ayından başlayaraq göstərilmiş məsələlərlə bağlı ekspert qrupuna üzv olan ölkələrin nümayəndələri tərəfindən görülmüş bütün işlər iş planına uyğun olaraq elektron məsləhətləşmələr formasında aparılmışdır.

Hər bir göstəricinin hesablanması və müəyyən olunması qaydaları, metodoloji izahları, təklif olunan məlumat mənbəyi, milli qanunvericilkdən və beynəlxalq tövsiyələrdən irəli gələn tələblər, digər göstəricilərlə əlaqələri, beynəlxalq müqayisəliliyi ilə bağlı tədbir iştirakçıları müəyyənləşdirilmiş qaydada təqdimatlarla çıxış etmişdir. Dövlət Statistika Komitəsinin nümayəndəsi “iş saatları”, o cümlədən onun alt göstəricisi olan “bir işdən çox işdə işləyən işçilər” haqqında məruzə ilə çıxış etmişdir.

Tədbirin sonunda beynəlxalq müqayisəliliyi təmin edə biləcək keyfiyyətli məşğulluğu səciyyələndirən göstəricilərin və onların metodoloji izahlarının (4 element çərçivəsində), eyni zamanda konseptual sənədin yekun layihələri elektron poçt vasitəsilə ekspert qrupunun üzvlərinə və 2013-cü ilin aprel ayınadək rəylərin katibliyə təqdim edilməsi bəyənildi. Göstərilən layihələrin 2013-cü ilin sentyabr ayında keçiriləcək Keyfiyyətli məşğulluğun ölçülməsinə dair 7-ci görüşdə müzakirə olunması və oktyabr ayında keçiriləcək Avropa Statistiklər Konfransının Bürosuna və Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransına təsdiq üçün təqdim edilməsi razılaşdırıldı.